# Nazirlər Komitəsinin üzv dövlətlərə “Avropada qeyri-hökumət təşkilatlarının hüquqi statusu haqqında” CM/Rec(2007)14 saylı tövsiyəsi

# Recommendation CM/Rec(2007)14 of the Committee of Ministers to member states on the legal status of non-governmental organisations in Europe

(Nazirlər Komitəsi tərəfindən 10 oktyabr 2007-ci ildə nazirlərin nümayəndələrinin 1006-cı iclasında qəbul edilmişdir)

(Adopted by the Committee of Ministers on 10 October 2007 at the 1006th meeting of the Ministers' Deputies)

# Nazirlər Komitəsinin üzv dövlətlərə “Avropada qeyri-hökumət təşkilatlarının hüquqi statusu haqqında” CM/Rec(2007)14 saylı tövsiyəsi

*(Nazirlər Komitəsi tərəfindən 10 oktyabr 2007-ci ildə nazirlərin nümayəndələrinin 1006-cı iclasında qəbul edilmişdir)*

---

# Recommendation CM/Rec(2007)14 of the Committee of Ministers to member states on the legal status of non-governmental organisations in Europe

*(Adopted by the Committee of Ministers on 10 October 2007 at the 1006th meeting of the Ministers' Deputies)*

# **Contents** / Mündəricat

The Committee of Ministers, under the terms of Article 15.b of the Statute of the Council of Europe,

Considering that the aim of the Council of Europe is to achieve greater unity between its members and that this aim may be pursued through the adoption of common rules;

Aware of the essential contribution made by non-governmental organisations (NGOs) to the development and realisation of democracy and human rights, in particular through the promotion of public awareness, participation in public life and securing the transparency and accountability of public authorities, and of the equally important contribution of NGOs to the cultural life and social well-being of democratic societies;

Taking into consideration the invaluable contribution also made by NGOs to the achievement of the aims and principles of the United Nations Charter and of the Statute of the Council of Europe;

Having regard to the Declaration and Action Plan adopted at the Third Summit of Heads of State and Government of the Council of Europe (Warsaw, 16-17 May 2005);

Noting that the contributions of NGOs are made through an extremely diverse body of activities which can range from acting as a vehicle for communication between different segments of society and public authorities, through the advocacy of changes in law and public policy, the provision of assistance to those in need, the elaboration of technical and professional standards, the monitoring of compliance with existing obligations under national and international law, and on to the provision of a means of personal fulfilment and of pursuing, promoting and defending interests shared with others;

Bearing in mind that the existence of many NGOs is a manifestation of the right of their members to freedom of association under Article 11 of the Convention for the Protection of Human Rights and Fundamental Freedoms and of their host country's adherence to principles of democratic pluralism;

Having regard to Article 5 of the European Social Charter (revised) (ETS No. 163), Articles 3, 7 and 8 of the Framework Convention for the Protection of National Minorities (ETS No. 157) and Article 3 of the Convention on the Participation of Foreigners in Public Life at Local Level (ETS No. 144);

Recognising that the operation of NGOs entails responsibilities as well as rights;

Considering that the best means of ensuring ethical, responsible conduct by NGOs is to promote self-regulation;

Taking into consideration the case law of the European Court of Human Rights and the views of United Nations human rights treaty bodies;

Taking into account the Declaration on the Right and Responsibility of Individuals, Groups and Organs of Society to Promote and Protect Universally Recognized Human Rights and Fundamental Freedoms, United Nations General Assembly Resolution A/RES/53/144;

Drawing upon the Fundamental Principles on the Status of Non-Governmental Organisations in Europe;

Having regard to the European Convention on the Recognition of the Legal Personality of International Non-

Nazirlər Komitəsinin üzv dövlətlərə "Avropada qeyri-hökumət təşkilatlarının hüquqi statusu haqqında" CM/Rec(2007)14 saylı tövsiyəsi

(Nazirlər Komitəsi tərəfindən 10 oktyabr 2007-ci ildə nazirlərin nümayəndələrinin 1006-cı iclasında qəbul edilmişdir)

Nazirlər Komitəsi, Avropa Şurası Nizamnaməsinin 15-ci maddəsinin b bəndinin şərtlərinə əsasən,

Avropa Şurasının məqsədinin öz üzvləri arasında daha sıx birliyə nail olmaqdan ibarət olduğunu və bu məqsədin ümumi normaların qəbulu vasitəsilə həyata keçirilə biləcəyini nəzərə alaraq;

Demokratiyanın və insan hüquqlarının inkişafına və reallaşmasına, xüsusən də ictimaiyyətin məlumatlandırılmasının təşviqinə, insanların ictimai həyatda iştirakına və dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin şəffaflığının və hesabatlılığının təmin edilməsinə qeyri-hökumət təşkilatlarının (QHT-lərin) əhəmiyyətli töhfə verməsindən, habelə demokratik cəmiyyətlərin mədəni həyatına və sosial rifahına QHT-lərin eyni dərəcədə mühüm töhfəsindən xəbərdar olaraq;

Həmçinin Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin və Avropa Şurası Nizamnaməsinin məqsəd və prinsiplərinə nail olunmasına QHT-lərin çox qiymətli töhfə verdiyini nəzərə alaraq;

Avropa Şurasının dövlət və hökumət başçılarının Üçüncü Sammitində (Varşava, 16-17 may 2005-ci il) qəbul edilmiş Bəyannamə və Fəaliyyət Planını nəzərə alaraq;

QHT-lərin verdiyi töhfələrin cəmiyyətin müxtəlif təbəqələri ilə dövlət hakimiyyəti orqanları arasında əlaqə vasitəsi rolunu oynamaqdan tutmuş qanunvericilikdə və dövlət siyasətində dəyişikliklərin təşviqinə, ehtiyacı olanların yardımla təmin edilməsinə, texniki və peşə standartlarının hazırlanmasına, milli və beynəlxalq hüquqdakı mövcud öhdəliklərə əməl olunmasının monitorinqinə, şəxsi qabiliyyətlərin reallaşdırılması və digər şəxslərlə ümumi maraqların həyata keçirilməsi, təşviqi və müdafiəsi vasitələrinin təmin edilməsinə qədər son dərəcə müxtəlif fəaliyyətlər vasitəsilə həyata keçirildiyini qeyd edərək;

Bir çox QHT-lərin mövcudluğunun onların üzvlərinin İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 11-ci maddəsində nəzərdə tutulmuş birləşmək azadlığı hüququnun və onların ölkələrinin demokratik plüralizm prinsiplərinə sadiqliyinin ifadəsi olduğunu yada salaraq;

Dəyişikliklər edilmiş Avropa Sosial Xartiyasının (ETS No. 163) 5-ci maddəsini, Milli azlıqların müdafiəsinə dair Çərçivə Konvensiyasının (ETS No. 157) 3, 7 və 8-ci maddələrini və Əcnəbilərin yerli səviyyədə ictimai həyatda iştirakına dair Konvensiyanın (ETS No. 144) 3-cü maddəsini nəzərə alaraq;

QHT-lərin fəaliyyətinin hüquqlarla yanaşı vəzifələr də doğurduğunu etiraf edərək;

QHT-lərin etik və məsuliyyətli davranışını təmin etməyin ən yaxşı üsulunun özünütənzimləmə olduğunu hesab edərək;

Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnu və Birləşmiş Millətlər Təşkilatının insan hüquqları üzrə müqavilə orqanlarının rəylərini nəzərə alaraq;

Hamılıqla tanınmış insan hüquqlarının və əsas azadlıqların təşviqi və müdafiəsi sahəsində cəmiyyətdəki fərdlərin, qrupların və orqanların hüquq və vəzifələri haqqında Bəyannaməni

* qeyri-rəsmi tərcümə.

Governmental Organisations (ETS No. 124) (hereinafter Convention No. 124) and to the desirability of enlarging the number of its contracting parties;

Recommends that the governments of member states:

be guided in their legislation, policies and practice by the minimum standards set out in this recommendation;

take account of these standards in monitoring the commitments they have made;

ensure that this recommendation and the accompanying Explanatory Memorandum are translated and disseminated as widely as possible to NGOs and the public in general, as well as to parliamentarians, relevant public authorities and educational institutions, and used for the training of officials.

## I. Basic principles

1. For the purpose of this recommendation, NGOs are voluntary self-governing bodies or organisations established to pursue the essentially non-profit-making objectives of their founders or members. They do not include political parties.

2. NGOs encompass bodies or organisations established both by individual persons (natural or legal) and by groups of such persons. They can be either membership or non-membership based.

3. NGOs can be either informal bodies or organisations or ones which have legal personality.

4. NGOs can be national or international in their composition and sphere of operation.

5. NGOs should enjoy the right to freedom of expression and all other universally and regionally guaranteed rights and freedoms applicable to them.

6. NGOs should not be subject to direction by public authorities.

7. NGOs with legal personality should have the same capacities as are generally enjoyed by other legal persons and should be subject to the administrative, civil and criminal law obligations and sanctions generally applicable to those legal persons.

8. The legal and fiscal framework applicable to NGOs should encourage their establishment and continued operation.

9. NGOs should not distribute any profits which might arise from their activities to their members or founders but can use them for the pursuit of their objectives.

10. Acts or omissions by public authorities affecting an NGO should be subject to administrative review and be open to challenge by the NGO in an independent and impartial court with full jurisdiction.

## II. Objectives

11. NGOs should be free to pursue their objectives, provided that both the objectives and the means employed are consistent with the requirements of a democratic society.

12. NGOs should be free to undertake research, education and advocacy on issues of public debate, regardless of whether the

(Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının A/RES/53/144 saylı qətnaməsi) nəzərə alaraq;

Avropada qeyri-hökumət təşkilatlarının statusu haqqında Təməl Prinsiplərə əsaslanaraq;

Beynəlxalq qeyri-hökumət təşkilatlarının hüquq subyektliyinin tanınması haqqında Avropa Konvensiyasını (ETS No. 124) (bundan sonra "124 saylı Konvensiya" adlanacaq) və onun iştirakçısı olan tərəflərin sayının artırılmasının arzu edilən olduğunu nəzərə alaraq;

Tövsiyə edir ki, üzv dövlətlərin hökumətləri:

- bu Tövsiyədə əks olunmuş minimal standartları öz qanunvericilik, siyasət və təcrübədə rəhbər tutsunlar;
- götürdükləri öhdəliklərin monitorinqində bu standartları nəzərə alsınlar;
- bu Tövsiyənin və ona əlavə olunan İzahedici Memorandumun mümkün qədər geniş şəkildə tərcümə olunaraq QHT-lər və geniş ictimaiyyət arasında, eləcə də parlament üzvləri, müvafiq dövlət hakimiyyəti orqanları və təhsil müəssisələri arasında yayılmasını və dövlət məmurlarının təlimləndirilməsində istifadə olunmasını təmin etsinlər.

## I. Əsas prinsiplər

1. Bu Tövsiyənin məqsədləri üçün QHT-lər dedikdə mahiyyət etibarı ilə öz təsisçilərinin və ya üzvlərinin qeyri-kommersiya məqsədlərinin həyata keçirilməsi üçün yaradılmış könüllü özünüidarə birlikləri və ya təşkilatları başa düşülür. Buraya siyasi partiyalar daxil deyil.

2. QHT-lər həm ayrı-ayrı (fiziki və hüquqi) şəxslər, həm də belə şəxslərin qrupları tərəfindən yaradılmış birlikləri və ya təşkilatları özündə ehtiva edir. Onlar üzvlüyə əsaslana və ya əsaslanmaya bilərlər.

3. QHT-lər istər formal birlik və ya təşkilat, istərsə də hüquqi şəxs ola bilərlər.

4. QHT-lər tərkibinə və fəaliyyət sahəsinə görə milli və ya beynəlxalq qurum ola bilərlər.

5. QHT-lər ifadə azadlığı hüququna və onlara şamil oluna bilən, universal və regional miqyasda təminat verilən bütün digər hüquq və azadlıqlara malik olmalıdırlar.

6. QHT-lər dövlət hakimiyyəti orqanlarının tabeçiliyində olmamalıdırlar.

7. Hüquqi şəxs olan QHT-lər adətən digər hüquqi şəxslərin malik olduğu hüquq qabiliyyətinə malik olmalı və adətən həmin hüquqi şəxslərə tətbiq edilə bilən inzibati, mülki və cinayət-hüquqi öhdəliklərə və sanksiyalara məruz qalmalıdırlar.

8. QHT-lərə tətbiq edilən hüquq və maliyyə normaları onların yaradılmasını və davamlı fəaliyyətini həvəsləndirməlidir.

9. QHT-lər onların fəaliyyətlərindən yarana bilən hər hansı mənfəəti öz üzvləri və ya təsisçiləri arasında bölüşdürməməlidirlər, lakin onlardan öz məqsədlərinə nail olmaq üçün istifadə edə bilərlər.

10. Dövlət hakimiyyəti orqanlarının QHT-lərə təsir göstərə bilən hərəkətləri və ya hərəkətsizliyi inzibati nəzarətə məruz qalmalı və QHT-lər onlardan tam yurisdiksiyalı müstəqil və qərəzsiz məhkəməyə şikayət etmək imkanına malik olmalıdırlar.

## II. Məqsədlər

11. QHT-lər öz məqsədlərini həyata keçirməkdə azad olmalıdırlar, bu şərtlə ki,

* qeyri-rəsmi tərcümə.

position taken is in accord with government policy or requires a change in the law.

13. NGOs should be free to support a particular candidate or party in an election or a referendum provided that they are transparent in declaring their motivation. Any such support should also be subject to legislation on the funding of elections and political parties.

14. NGOs should be free to engage in any lawful economic, business or commercial activities in order to support their not-for-profit activities without any special authorisation being required, but subject to any licensing or regulatory requirements generally applicable to the activities concerned.

15. NGOs should be free to pursue their objectives through membership of associations, federations and confederations of NGOs, whether national or international.

## III. Formation and membership

### A. Establishment

16. Any person, be it legal or natural, national or non-national, or group of such persons, should be free to establish an NGO and, in the case of non-membership-based NGOs, should be able to do so by way of gift or bequest.

17. Two or more persons should be able to establish a membership-based NGO but a higher number can be required where legal personality is to be acquired, so long as this number is not set at a level that discourages establishment.

### B. Statutes

18. NGOs with legal personality should normally have statutes, comprising the constitutive instrument or instrument of incorporation and, where applicable, any other document setting out the conditions under which they operate.

19. The statutes of an NGO with legal personality should generally specify:

**a.** its name;

**b.** its objectives;

**c.** its powers;

**d.** the highest governing body;

**e.** the frequency of meetings of this body;

**f.** the procedure by which such meetings are to be convened;

**g.** the way in which this body is to approve financial and other reports;

**h.** the procedure for changing the statutes and dissolving the organisation or merging it with another NGO.

20. The highest governing body of a membership-based NGO should be the membership and its agreement should be required for any change in the statutes. For other NGOs the highest governing body should be the one specified in the statutes.

### C. Membership

21. No person should be required by law or otherwise compelled to join an NGO, other than a body or organisation established by law to regulate a profession in those states which treat such an entity as an NGO.

22. The ability of any person, be it natural or legal, national or non-national, to

məqsədlər və onlara nail olma vasitələri demokratik cəmiyyətin tələblərinə uyğun olsun.

12. QHT-lər ictimai debatların predmeti olan məsələlərlə bağlı tutduqları mövqeyin hökumət siyasətinə uyğun olub-olmamasından və ya qanunvericilikdə dəyişiklik tələb edib-etməməsindən asılı olmayaraq həmin məsələlərə dair tədqiqat, maarifləndirmə və təşviqat işini həyata keçirməkdə azad olmalıdırlar.

13. QHT-lər seçkidə və ya referendumda konkret namizədi və ya partiyanı dəstəkləməkdə azad olmalıdırlar, bu şərtlə ki, onlar öz motivlərini şəffaf şəkildə bəyan etsinlər. Hər hansı belə dəstək həmçinin seçkilərin və siyasi partiyaların maliyyələşdirilməsi haqqında qanunvericilikdən asılı olmalıdır.

14. QHT-lər özlərinin qeyri-kommersiya fəaliyyətlərini dəstəkləmək üçün hər hansı qanuni iqtisadi, biznes və ya kommersiya fəaliyyətləri ilə xüsusi icazə tələb olunmadan məşğul olmaqda azad olmalıdırlar, lakin həmin fəaliyyətlər bu kimi müvafiq fəaliyyətlərə tətbiq edilən hər hansı lisenziya və ya tənzimləmə tələblərindən asılı ola bilər.

15. QHT-lər istər milli, istərsə də beynəlxalq QHT assosiasiyalarına, federasiyalarına və konfederasiyalarına üzv olma vasitəsilə məqsədlərini həyata keçirməkdə azad olmalıdırlar.

## III. Təşkil edilmə və üzvlük

### A. Yaradılma

16. Hüquqi və ya fiziki şəxs olmasından, vətəndaş və ya qeyri-vətəndaş olmasından asılı olmayaraq istənilən şəxs və ya şəxslər qrupu QHT yaratmaqda azad olmalı, üzvlüyə əsaslanmayan QHT-lər olduqda isə, bağışlama və ya vəsiyyət yolu ilə bunu etmək imkanına malik olmalıdır.

17. İki və ya daha artıq şəxs üzvlüyə əsaslanan QHT yaratmaq imkanına malik olmalıdır, amma hüquqi şəxs statusu əldə etmək lazım gəldikdə daha artıq sayda üzvün olması tələb oluna bilər, bu şərtlə ki, həmin say üzvləri QHT-ni yaratmaqdan çəkindirən səviyyədə olmasın.

### B. Nizamnamələr

18. Hüquqi şəxs statusu olan QHT-lər adətən nizamnaməyə, yəni təşkilatın təsis olunması və ya hüquqi şəxs kimi qeydə alınması üçün zəruri olan sənədə və lazımi hallarda onların fəaliyyətinin şərtlərini əks etdirən hər hansı digər sənədə malik olmalıdırlar.

19. Hüquqi şəxs statusu olan QHT-nin nizamnaməsində adətən aşağıdakılar göstərilməlidir:

**a.** QHT-nin adı;

**b.** Məqsədləri;

**c.** səlahiyyətləri;

**d.** ali idarəetmə orqanı;

**e.** bu orqanın yığıncaqlarının dövriliyi;

**f.** belə yığıncaqların çağırılması qaydası;

**g.** bu orqan tərəfindən maliyyə və digər hesabatların təsdiq edilməsi üsulu;

**h.** nizamnaməyə dəyişiklik edilməsi, təşkilatın ləğvi və ya digər QHT ilə birləşməsi qaydası.

20. Üzvlüyə əsaslanan QHT-nin ali idarəetmə orqanı onun üzvlərindən təşkil olunmalı və nizamnamədə hər hansı dəyişikliyə onun razılığı tələb olunmalıdır. Digər QHT-lərdə ali idarəetmə orqanı nizamnamədə göstərilən orqan olmalıdır.

* qeyri-rəsmi tərcümə.

join membership-based NGOs should not be unduly restricted by law and, subject to the prohibition on unjustified discrimination, should be determined primarily by the statutes of the NGOs concerned.

23. Members of NGOs should be protected from expulsion contrary to their statutes.

24. Persons belonging to an NGO should not be subject to any sanction because of their membership. This should not preclude such membership being found incompatible with a particular position or employment.

25. Membership-based NGOs should be free to allow non-members to participate in their activities.

## IV. Legal personality

### A. General

26. The legal personality of NGOs should be clearly distinct from that of their members or founders.

27. An NGO created through the merger of two or more NGOs should succeed to their rights and liabilities.

### B. Acquisition of legal personality

28. The rules governing the acquisition of legal personality should, where this is not an automatic consequence of the establishment of an NGO, be objectively framed and should not be subject to the exercise of a free discretion by the relevant authority.

29. The rules for acquiring legal personality should be widely published and the process involved should be easy to understand and satisfy.

30. Persons can be disqualified from forming NGOs with legal personality following a conviction for an offence that has demonstrated that they are unfit to form one. Such a disqualification should be proportionate in scope and duration.

31. Applications in respect of membership-based NGOs should only entail the filing of their statutes, their addresses and the names of their founders, directors, officers and legal representatives. In the case of non-membership-based NGOs there can also be a requirement of proof that the financial means to accomplish their objectives are available.

32. Legal personality for membership-based NGOs should only be sought after a resolution approving this step has been passed by a meeting to which all the members had been invited.

33. Fees can be charged for an application for legal personality but they should not be set at a level that discourages applications.

34. Legal personality should only be refused where there has been a failure to submit all the clearly prescribed documents required, a name has been used that is patently misleading or is not adequately distinguishable from that of an existing natural or legal person in the state concerned or there is an objective in the statutes which is clearly inconsistent with the requirements of a democratic society.

35. Any evaluation of the acceptability of the objectives of NGOs seeking legal personality should be well informed and respectful of the notion of political pluralism. It

### C. Üzvlük

21. Peşə fəaliyyətini tənzimləmək üçün qanunla yaradılmış qurumu və ya təşkilatı QHT hesab edən dövlətlərdə bu cür qurumlar istisna olmaqla hər hansı digər QHT-yə üzv olmağı qanunla və ya hər hansı başqa formada heç kimdən tələb etmək olmaz.

22. Fiziki və ya hüquqi şəxs olmasından, vətəndaş və ya qeyri-vətəndaş olmasından asılı olmayaraq istənilən şəxsin üzvlüyə əsaslanan QHT-yə üzv olmaq imkanı qanunla əsassız olaraq məhdudlaşdırıla bilməz və bu cür məhdudiyyət, əsassız ayrı-seçkiliyin qadağan olunması şərti ilə, ilk növbədə müvafiq QHT-lərin nizamnaməsi ilə müəyyən edilməlidir.

23. QHT-lərin üzvləri onların nizamnaməsinə zidd olaraq üzvlükdən çıxarılmaqdan müdafiə edilməlidirlər.

24. QHT-yə üzv olan şəxslər bu üzvlüyə görə hər hansı sanksiyaya məruz qalmamalıdırlar. Bu müddəa belə üzvlüyün konkret vəzifə və ya işlə bir araya sığmayan hesab olunmasına mane olmur.

25. Üzvlüyə əsaslanan QHT-lər onların fəaliyyətlərində qeyri-üzvlərin iştirak etməsinə icazə verməkdə azad olmalıdırlar.

## IV. Hüquq subyektliyi

### A. Ümumi müddəalar

26. QHT-lərin hüquq subyektliyi onların üzvlərinin və ya təsisçilərinin hüquq subyektliyindən aydın şəkildə fərqləndirilməlidir.

27. İki və ya daha artıq QHT-nin birləşməsi nəticəsində yaradılmış QHT hüquqi varis olaraq onların hüquq və öhdəliklərini öz üzərinə götürməlidir.

### B. Hüquqi şəxs statusunun əldə edilməsi

28. QHT-nin yaradılmasının avtomatik olaraq hüquqi şəxs statusunun əldə edilməsinə səbəb olmadığı hallarda hüquqi şəxs statusunun əldə edilməsini tənzimləyən qaydalar obyektiv şəkildə müəyyən edilməli və müvafiq hakimiyyət orqanının müstəqil səlahiyyətindən asılı olmamalıdır.

29. Hüquqi şəxs statusunun əldə edilməsi qaydaları geniş ictimaiyyətə çatdırılmalı və bu prosesin başa düşülməsi və icrası asan olmalıdır.

30. Hər hansı şəxslər hüquqi şəxs statusu olan QHT yaratmaq iqtidarında olmadıqlarını göstərən hüquq pozuntusuna görə məhkum edildikdən sonra bu cür QHT təşkil etmək hüququndan məhrum oluna bilərlər. Bu cür məhrum olunma tətbiq dairəsi və müddət baxımından mütənasib olmalıdır.

31. Üzvlüyə əsaslanan QHT-lərin qeydiyyatı ilə bağlı müraciətlərə yalnız onların nizamnamələri, ünvanları və təsisçilərinin, direktorlarının, idarə heyəti üzvlərinin və hüquqi nümayəndələrinin adları daxil edilməlidir. Üzvlüyə əsaslanmayan QHT-lərdən söhbət getdikdə isə, onlardan məqsədlərini həyata keçirmək üçün maliyyə vəsaitlərinə malik olduqlarını göstərən sübut tələb oluna bilər.

32. Üzvlüyə əsaslanan QHT-lərin hüquqi şəxs statusu əldə etmək üçün müraciət etməsi yalnız bütün üzvlərin dəvət olunduğu yığıncaq tərəfindən bu addımı bəyənən qərar qəbul edildikdən sonra baş verməlidir.

33. Hüquqi şəxs statusu əldə etmək üçün müraciətə görə rüsum tutula bilər, amma o, belə müraciətləri etməkdən çəkindirən səviyyədə olmamalıdır.

34. Hüquqi şəxs statusu əldə etmək üçün müraciət yalnız o halda rədd edilə bilər ki, dəqiq

* qeyri-rəsmi tərcümə.

should not be driven by prejudices.

36. The body responsible for granting legal personality should act independently and impartially in its decision making. Such a body should have sufficient, appropriately qualified staff for the performance of its functions.

37. A reasonable time limit should be prescribed for taking a decision to grant or refuse legal personality.

38. All decisions should be communicated to the applicant and any refusal should include written reasons and be subject to appeal to an independent and impartial court.

39. Decisions on qualification for financial or other benefits to be accorded to an NGO should be taken independently from those concerned with its acquisition of legal personality and preferably by a different body.

40. A record of the grant of legal personality to NGOs, where this is not an automatic consequence of the establishment of an NGO, should be readily accessible to the public.

41. NGOs should not be required to renew their legal personality on a periodic basis.

### C. Branches; changes to statutes

42. NGOs should not require any authorisation to establish branches, whether within the country or (subject to paragraph 45 below) abroad.

43. NGOs should not require approval by a public authority for a subsequent change in their statutes, unless this affects their name or objectives. The grant of such approval should be governed by the same process as that for the acquisition of legal personality but such a change should not entail the NGO concerned being required to establish itself as a new entity. There can be a requirement to notify the relevant authority of other amendments to their statutes before these can come into effect.

### D. Termination of legal personality

44. The legal personality of NGOs can only be terminated pursuant to the voluntary act of their members or in the case of non-membership-based NGOs, its governing body or in the event of bankruptcy, prolonged inactivity or serious misconduct.

### E. Foreign NGOs

45. Without prejudice to applicability of the articles laid down in Convention No. 124 for those states that have ratified that convention, foreign NGOs can be required to obtain approval, in a manner consistent with the provisions of paragraphs 28 to 31 and 33 to 39 above, to operate in the host country. They should not have to establish a new and separate entity for this purpose. Approval to operate can only be withdrawn in the event of bankruptcy, prolonged inactivity or serious misconduct.

## V. Management

46. The persons responsible for the management of membership-based NGOs should be elected or designated by the

şəkildə göstərilmiş sənədlərin hamısı təqdim edilməsin, habelə açıq-aydın çaşdırıcı olan, yaxud müvafiq dövlətdə mövcud olan fiziki və ya hüquqi şəxsin adından yetərincə fərqləndirilə bilməyən addan istifadə edilsin, yaxud da nizamnamədə demokratik cəmiyyətin tələblərinə açıq-aydın zidd olan məqsəd yer alsın.

35. Hüquqi şəxs statusu əldə etmək istəyən QHT-lərin məqsədlərinin qəbul edilən olub-olmadığının qiymətləndirilməsi siyasi plüralizm anlayışı barədə yetərincə məlumatlılığa və bu anlayışa hörmətə əsaslanmalıdır.

36. Hüquqi şəxs statusunun verilməsinə görə cavabdeh olan orqan qərarlarını çıxararkən müstəqil və qərəzsiz hərəkət etməlidir. Belə orqan öz funksiyalarını icra etmək üçün müvafiq ixtisaslı kifayət qədər işçiyə malik olmalıdır.

37. Hüquqi şəxs statusunun verilməsinə və ya bundan imtinaya görə ağlabatan müddət nəzərdə tutulmalıdır.

38. Bütün qərarlar barədə ərizəçiyə məlumat verilməli və hər hansı imtina qərarında imtinanın əsasları yazılı şəkildə göstərilməli, həmin qərardan müstəqil və qərəzsiz məhkəməyə şikayət etmək mümkün olmalıdır.

39. QHT-yə maliyyə imtiyazlarına və ya digər imtiyazlara malik olmaq hüququ verilməsi barədə qərarlar hüquqi şəxs statusunun əldə edilməsi ilə bağlı qərarlardan müstəqil surətdə (ayrıca) qəbul edilməlidir, yaxşı olar ki, onlar başqa orqan tərəfindən qəbul edilsin.

40. QHT-nin yaradılmasının avtomatik olaraq hüquqi şəxs statusunun əldə edilməsinə səbəb olmadığı hallarda QHT-lərə hüquqi şəxs statusunun verilməsi barədə məlumatlara ictimaiyyətin maneəsiz çıxışı olmalıdır.

41. Hüquqi şəxs statusunun qeydiyyatının mütəmadi olaraq təzələnməsini QHT-lərdən tələb etmək olmaz.

### C. Filiallar; nizamnaməyə dəyişikliklər

42. İstər ölkə daxilində, istərsə də xaricdə filiallar yaratmaq üçün QHT-lərin hər hansı icazə istəməsi tələb olunmamalıdır (aşağıdakı 45-ci bəndə əməl etmək şərti ilə).

43. QHT-lərin öz nizamnamələrində sonradan etdiyi dəyişikliklər onların adına və ya məqsədlərinə təsir göstərmirsə, həmin dəyişikliklərin hər hansı dövlət hakimiyyəti orqanı tərəfindən təsdiqi tələb olunmamalıdır. Dəyişikliyin təsdiqi prosesi hüquqi şəxs statusunun əldə edilməsi prosesi ilə eyni qaydada tənzimlənməlidir, lakin belə dəyişiklik müvafiq QHT-nin özünü yeni hüquqi şəxs kimi təsis etməsi tələbini doğurmamalıdır. QHT nizamnaməsinə edilən digər dəyişikliklər qüvvəyə minməzdən əvvəl onlar barəsində müvafiq hakimiyyət orqanına məlumat vermək tələbi qoyula bilər.

### D. Hüquqi şəxs statusuna xitam verilməsi

44. QHT-lərin hüquqi şəxs statusuna yalnız onların üzvlərinin könüllü aktı əsasında, yaxud söhbət üzvlüyə əsaslanmayan QHT-lərdən gedirsə, müflisləşmə, uzunmüddətli fəaliyyətsizlik və ya ciddi hüquq pozuntusu hallarında xitam verilə bilər.

### E. Xarici QHT-lər

45. 124 saylı Konvensiyada təsbit olunmuş maddələrin həmin Konvensiyanı ratifikasiya etmiş dövlətlərə münasibətdə tətbiqinə xələl gətirmədən xarici QHT-lərdən tələb oluna bilər ki, gəldikləri ölkədə yuxarıdakı 28-31 və 33-39-cu bəndlərin müddəalarına uyğun olaraq fəaliyyət göstərmək üçün bu cür fəaliyyətə icazə alsınlar. Bu məqsəd üçün onların yeni və ayrıca hüquqi şəxs yaratması tələb olunmamalıdır. Fəaliyyətə



* qeyri-rəsmi tərcümə.

highest governing body or by an organ to which it has delegated this task. The management of non-membership-based NGOs should be appointed in accordance with their statutes.

47. NGOs should ensure that their management and decision-making bodies are in accordance with their statutes but they are otherwise free to determine the arrangements for pursuing their objectives. In particular, NGOs should not need any authorisation from a public authority in order to change their internal structure or rules.

48. The appointment, election or replacement of officers, and, subject to paragraphs 22 and 23 above, the admission or exclusion of members should be a matter for the NGOs concerned. Persons may, however, be disqualified from acting as an officer of an NGO following conviction for an offence that has demonstrated that they are unfit for such responsibilities. Such a disqualification should be proportionate in scope and duration.

49. NGOs should not be subject to any specific limitation on non-nationals being on their management or staff.

## VI. Fundraising, property and public support

### A. Fundraising

50. NGOs should be free to solicit and receive funding cash or in-kind donations not only from public bodies in their own state but also from institutional or individual donors, another state or multilateral agencies, subject only to the laws generally applicable to customs, foreign exchange and money laundering and those on the funding of elections and political parties.

### B. Property

51. NGOs with legal personality should have access to banking facilities.

52. NGOs with legal personality should be able to sue for the redress of any harm caused to their property.

53. NGOs with legal personality can be required to act on independent advice when selling or acquiring any land, premises or other major assets where they receive any form of public support.

54. NGOs with legal personality should not utilise property acquired on a tax-exempt basis for a non-tax-exempt purpose.

55. NGOs with legal personality can use their property to pay their staff and can also reimburse all staff and volunteers acting on their behalf for reasonable expenses thereby incurred.

56. NGOs with legal personality can designate a successor to receive their property in the event of their termination, but only after their liabilities have been cleared and any rights of donors to repayment have been honoured. However, in the event of no successor being designated or the NGO concerned having recently benefited from public funding or other form of support, it can be required that the property either be transferred to another NGO or legal person that most nearly conforms to its objectives or be applied towards them by the state.

icazə verməkdən yalnız müflisləşmə, uzunmüddətli fəaliyyətsizlik və ya ciddi hüquq pozuntusu hallarında imtina edilə bilər.

## V. İdarəetmə

46. Üzvlüyə əsaslanan QHT-lərin idarə olunmasına cavabdeh olan şəxslər yuxarı idarəetmə orqanı tərəfindən və ya həmin orqanın bu səlahiyyəti verdiyi digər orqan tərəfindən seçilməli və ya təyin edilməlidirlər. Üzvlüyə əsaslanmayan QHT-lərin rəhbərləri onların nizamnaməsinə uyğun olaraq təyin edilməlidir.

47. QHT-lər onların idarəetmə orqanlarının və qərarlar qəbul edən orqanlarının nizamnaməyə uyğun olmasını təmin etməlidirlər, lakin onlar öz məqsədlərini həyata keçirmək üçün idarəetməni təşkil etməkdə azaddırlar. QHT-lərin öz daxili strukturlarına və ya qaydalarına dəyişiklik etmək üçün dövlət hakimiyyəti orqanından hər hansı icazə alması tələb olunmamalıdır.

48. Məsul əməkdaşların təyin olunması, seçilməsi və ya əvəz olunması və yuxarıdakı 22-ci və 23-cü bəndlərə əməl etmək şərti ilə üzvlərin qəbulu və ya xaric edilməsi müvafiq QHT-lərin səlahiyyətinə aid olmalıdır. Lakin hər hansı şəxslər QHT-nin məsul əməkdaşı qismində fəaliyyət göstərmək iqtidarında olmadıqlarını göstərən hüquq pozuntusuna görə məhkum edildikdən sonra həmin qisimdə fəaliyyət göstərmək hüququndan məhrum edilə bilərlər. Bu cür məhrum olunma tətbiq dairəsi və müddət baxımından mütənasib olmalıdır.

49. QHT-lər rəhbərliklərində və ya əməkdaşları arasında müvafiq ölkənin vətəndaşı olmayan şəxslər olduğuna görə hər hansı xüsusi məhdudiyyətə məruz qalmamalıdırlar.

## VI. Vəsaitlərin cəlb olunması, mülkiyyət və dövlət dəstəyi

### A. Vəsaitlərin cəlb olunması

50. QHT-lər təkcə öz dövlətlərindəki dövlət orqanlarından deyil, həm də institusional və ya fərdi donorlardan, digər dövlətlərin qurumlarından və ya beynəlxalq qurumlardan vəsaitlər (nağd və ya natura formasında ianələr) istəməkdə və əldə etməkdə azad olmalıdırlar, bu zaman onlar yalnız gömrük, xarici valyuta mübadiləsi və çirkli pulların yuyulmasına, habelə seçkilərin və siyasi partiyaların maliyyələşdirilməsinə tətbiq edilən ümumi qanunlara riayət etməlidirlər.

### B. Mülkiyyət

51. Hüquqi şəxs statusu olan QHT-lər bank xidmətlərindən istifadə imkanına malik olmalıdırlar.

52. Hüquqi şəxs statusu olan QHT-lər mülkiyyətlərinə yetirilmiş hər hansı ziyanın ödənilməsi ilə bağlı iddia qaldırmaq imkanına malik olmalıdırlar.

53. Hüquqi şəxs statusu olan QHT-lər hər hansı formada dövlət dəstəyi aldıqları hallarda onlardan tələb oluna bilər ki, hər hansı torpaq sahəsini, daşınmaz əmlakı və ya digər əsas aktivləri satarkən və ya alarkən müstəqil məsləhət əsasında hərəkət etsinlər.

54. Hüquqi şəxs statusu olan QHT-lər vergidən azad olunmaqla əldə etdikləri mülkiyyəti vergidən azad olunma şərtindən kənara çıxan məqsəd üçün istifadə etməməlidirlər.

55. Hüquqi şəxs statusu olan QHT-lər əməkdaşlarına əməkhaqqı ödəmək üçün, habelə onların adından hərəkət edən bütün əməkdaşlarının və könüllülərin işlərin icrası



* qeyri-rəsmi tərcümə.

Moreover the state can be the successor where either the objectives or the means used by the NGO to achieve those objectives have been found to be inadmissible.

### C. Public support

57. NGOs should be assisted in the pursuit of their objectives through public funding and other forms of support, such as exemption from income and other taxes or duties on membership fees, funds and goods received from donors or governmental and international agencies, income from investments, rent, royalties, economic activities and property transactions, as well as incentives for donations through income tax deductions or credits.

58. Any form of public support for NGOs should be governed by clear and objective criteria.

59. The nature and beneficiaries of the activities undertaken by an NGO can be relevant considerations in deciding whether or not to grant it any form of public support.

60. The grant of public support can also be contingent on an NGO falling into a particular category or regime defined by law or having a particular legal form.

61. A material change in the statutes or activities of an NGO can lead to the alteration or termination of any grant of public support.

## VII. Accountability

### A. Transparency

62. NGOs which have been granted any form of public support can be required each year to submit reports on their accounts and an overview of their activities to a designated supervising body.

63. NGOs which have been granted any form of public support can be required to make known the proportion of their funds used for fundraising and administration.

64. All reporting should be subject to a duty to respect the rights of donors, beneficiaries and staff, as well as the right to protect legitimate business confidentiality.

65. NGOs which have been granted any form of public support can be required to have their accounts audited by an institution or person independent of their management.

66. Foreign NGOs should be subject to the requirements in paragraphs 62 to 65 above only in respect of their activities in the host country.

### B. Supervision

67. The activities of NGOs should be presumed to be lawful in the absence of contrary evidence.

68. NGOs can be required to submit their books, records and activities to inspection by a supervising agency where there has been a failure to comply with reporting requirements or where there are reasonable grounds to suspect that serious breaches of the law have occurred or are imminent.

69. NGOs should not be subject to search and seizure without objective grounds for taking such measures and appropriate judicial authorisation.

70. No external intervention in the running of NGOs should take place unless a

zamanı çəkdikləri ağlabatan xərcləri ödəmək üçün mülkiyyətlərindən istifadə edə bilərlər.

56. Hüquqi şəxs statusu olan QHT-lər ləğv olunacaqları təqdirdə onların mülkiyyətini əldə etmək üçün hüquqi varis təyin edə bilərlər, lakin bu, yalnız onların bütün öhdəlikləri yerinə yetirildikdən və donorların öz pullarını geri almaq hüquqlarına əməl olunduqdan sonra baş verə bilər. Lakin heç bir hüquqi varis təyin edilməyibsə və ya müvafiq QHT son dövrlərdə dövlət vəsaiti alıbsa və ya hər hansı digər formada yardım alıbsa, ondan tələb oluna bilər ki, həmin mülkiyyəti məqsədləri onun məqsədlərinə daha yaxın olan başqa QHT-yə və ya hüquqi şəxsə, yaxud dövlətə versin. Bundan başqa, QHT-nin öz məqsədinə nail olmaq üçün istifadə etdiyi vasitələr yolverilməz hesab edildiyi hallarda dövlət onun hüquqi varisi ola bilər.

### C. Dövlət dəstəyi

57. QHT-lərə məqsədlərini həyata keçirməkdə dövlət vəsaitləri vasitəsilə, habelə üzvlük haqlarından və donorlardan və ya hökumət qurumlarından, yaxud beynəlxalq qurumlardan alınan vəsait və mallardan, eləcə də investisiya, icarə, qonorar, iqtisadi fəaliyyət və mülkiyyət əqdlərindən gələn gəlirlərdən tutulan gəlir vergisindən və digər vergi və ya rüsumlardan azad edilmə kimi digər yardım formaları vasitəsilə, eləcə də gəlir vergilərində güzəştlər etməklə və ya kreditlər verməklə ianələrin stimullaşdırılması vasitəsilə köməklik göstərilməlidir.

58. QHT-lərə hər hansı formada dövlət yardımı aydın və obyektiv meyarlarla tənzimlənməlidir.

59. QHT-nin həyata keçirdiyi fəaliyyətin xarakteri və benefisiarları ona hər hansı formada dövlət dəstəyi verib-verməmək barədə qərarın çıxarılmasında mühüm əsas ola bilər.

60. Dövlət dəstəyinin verilməsi həmçinin QHT-nin qanunla müəyyən edilmiş konkret kateqoriya və ya rejimə aid olmasından və ya konkret hüquqi formasından asılı ola bilər.

61. QHT-nin nizamnaməsində və ya fəaliyyətində mühüm dəyişikliklər hər hansı dövlət dəstəyinin verilməsində dəyişiklik edilməsinə və ya həmin dəstəyə xitam verilməsinə səbəb ola bilər.

## VII. Hesabatlılıq

### A. Şəffaflıq

62. Hər hansı formada dövlət dəstəyi alan QHT-lərdən tələb oluna bilər ki, hər il öz məsrəfləri barədə müvafiq nəzarət orqanına hesabat versinlər və fəaliyyətlərinin təsvirini ona təqdim etsinlər.

63. Hər hansı formada dövlət dəstəyi alan QHT-lərdən tələb oluna bilər ki, vəsait cəlb etmə və idarəetmə xərclərinə vəsaitlərinin hansı hissəsini sərf etdikləri barədə məlumat versinlər.

64. Bütün hesabatlar donorların, benefisiarların və işçilərin hüquqlarına hörmət etmək öhdəliyinə, habelə biznesin qanuni konfidensiallığını qorumaq hüququna əməl olunmaqla tərtib edilməlidir.

65. Hər hansı formada dövlət dəstəyi alan QHT-lərdən tələb oluna bilər ki, hesabatları onların rəhbərliyindən asılı olmayan müstəqil qurum və ya şəxs tərəfindən yoxlanılsın.

66. Xarici QHT-lər yuxarıdakı 62-65-ci bəndlərin tələblərinə yalnız gəldikləri ölkədəki fəaliyyətləri ilə əlaqədar olaraq əməl etməlidirlər.

### B. Nəzarət

67. QHT-lərin fəaliyyətlərinin qanunsuz



* qeyri-r?smi t?rcüm?.

serious breach of the legal requirements applicable to NGOs has been established or is reasonably believed to be imminent.

71. NGOs should generally be able to request suspension of any administrative measure taken in respect of them. Refusal of a request for suspension should be subject to prompt judicial challenge.

72. In most instances, the appropriate sanction against NGOs for breach of the legal requirements applicable to them (including those concerning the acquisition of legal personality) should merely be the requirement to rectify their affairs and/or the imposition of an administrative, civil or criminal penalty on them and/or any individuals directly responsible. Penalties should be based on the law in force and observe the principle of proportionality.

73. Foreign NGOs should be subject to the provisions in paragraphs 68 to 72 above only in respect of their activities in the host country.

74. The termination of an NGO or, in the case of a foreign NGO, the withdrawal of its approval to operate should only be ordered by a court where there is compelling evidence that the grounds specified in paragraphs 44 and 45 above have been met. Such an order should be subject to prompt appeal.

### C. Liability

75. The officers, directors and staff of an NGO with legal personality should not be personally liable for its debts, liabilities and obligations. However, they can be made liable to the NGO, third parties or all of them for professional misconduct or neglect of duties.

## VIII. Participation in decision making

76. Governmental and quasi-governmental mechanisms at all levels should ensure the effective participation of NGOs without discrimination in dialogue and consultation on public policy objectives and decisions. Such participation should ensure the free expression of the diversity of people's opinions as to the functioning of society. This participation and co-operation should be facilitated by ensuring appropriate disclosure or access to official information.

77. NGOs should be consulted during the drafting of primary and secondary legislation which affects their status, financing or spheres of operation.

olduğunu düşünmək üçün sübut yoxdursa, həmin fəaliyyətlər qanuni sayılmalıdır.

68. Hesabatlılıq tələblərinə riayət edilmədiyi hallarda və ya ciddi qanun pozuntusunun baş verdiyindən və ya baş verəcəyindən şübhələnmək üçün əsaslı səbəblər olduqda QHT-lərdən tələb oluna bilər ki, mühasibat hesabatlarını, sənədlərini və fəaliyyətlərinə dair məlumatları təftiş olunmaq üçün nəzarət orqanına təqdim etsinlər.

69. Belə tədbirlər üçün obyektiv səbəblər və müvafiq məhkəmə icazəsi olmadan QHT-lər axtarışa və ya müsadirəyə məruz qalmamalıdırlar.

70. QHT-lərə şamil olunan hüquqi tələblərin ciddi pozuntusunun baş verdiyi müəyyən edilməyibsə və ya baş verəcəyini düşünmək üçün əsaslı səbəblər yoxdursa, QHT-lərin işlərinə kənar müdaxilə olmamalıdır.

71. Bir qayda olaraq QHT-lər onlara münasibətdə görülmüş hər hansı inzibati tədbirin dayandırılması barədə müraciət etmək imkanına malik olmalıdırlar. Tədbirin dayandırılması barədə müraciət rədd edildikdə dərhal məhkəməyə şikayət etmək imkanı mövcud olmalıdır.

72. Bir çox hallarda QHT-lərə şamil olunan hüquqi tələblərin (hüquqi şəxs statusunun əldə edilməsi ilə bağlı tələblər də daxil olmaqla) pozulmasına görə QHT-lərə qarşı və (və ya) pozuntuya görə birbaşa məsuliyyət daşıyan hər hansı şəxslərə qarşı tətbiq edilən müvafiq sanksiya sadəcə pozuntunun düzəldilməsi tələbindən və (və ya) inzibati, mülki və ya cinayət-hüquqi cəzanın tətbiqindən ibarət ola bilər. Cəzalar qüvvədə olan qanuna əsaslanmalı və mütənasiblik prinsipinə riayət edilməlidir.

73. Xarici QHT-lər yuxarıdakı 68-72-ci bəndlərin müddəalarına yalnız gəldikləri ölkədəki fəaliyyətləri ilə əlaqədar olaraq əməl etməlidirlər.

74. QHT-lərin ləğvi və ya xarici QHT-dən söhbət gedirsə onun fəaliyyətinə icazənin geri alınması barədə qərar yalnız məhkəmə tərəfindən və bunun üçün yuxarıdakı 44-cü və 45-ci bəndlərdə göstərilən əsasların olduğuna dair inandırıcı sübutlar olduğu hallarda çıxarılmalıdır. Belə qərardan dərhal şikayət etmək imkanı mövcud olmalıdır.

### C. Məsuliyyət

75. Hüquqi şəxs statusu olan QHT-nin məsul əməkdaşları, direktorları və işçiləri onun borclarına, vəzifə və öhdəliklərinə görə şəxsən məsuliyyət daşımamalıdırlar. Lakin onlar peşə borclarını düzgün yerinə yetirmədiklərinə və ya vəzifələrinə səhlənkar yanaşdıqlarına görə QHT-nin, üçüncü tərəflərin, yaxud eyni vaxtda onların hamısının qarşısında məsuliyyət daşıya bilərlər.

## VIII. Qərarların qəbulunda iştirak

76. Bütün səviyyələrdə dövlət və kvazi-dövlət mexanizmləri dövlət siyasətinin məqsədləri ilə və dövlət siyasətinə dair qərarlarla bağlı dialoq və məsləhətləşmələrdə QHT-lərin ayrı-seçkilik qoyulmadan səmərəli iştirakını təmin etməlidir. Belə iştirak cəmiyyətin fəaliyyəti ilə bağlı insanların fikir müxtəlifliyinin azad ifadəsini təmin etməlidir. Bu iştiraka və əməkdaşlığa rəsmi məlumatların müvafiq qaydada açıqlanmasını və ya əlçatan olmasını təmin etmək vasitəsilə şərait yaradılmalıdır.

77. QHT-lərin statusuna, maliyyələşdirilməsinə və ya fəaliyyət sahəsinə aidiyyəti olan əsas və yardımçı qanunvericiliyin hazırlanması zamanı QHT-lərlə məsləhətləşmələr aparılmalıdır.



* qeyri-r?smi t?rcüm?.